Ədəbiyyat qəzeti

13 fevral 2021-ci il 27

# Şahin FAZİL - 80



Hörmətli Şahin müəllim!

Sizi-tanınmış şair, şərqşünas alim və tərjüməçini 80 illik yubileyiniz münasibətilə təbrik edirk.

Siz Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin fars dili şöbəsində təhsil almış, təhsillə yanaşı poeziyada qələminizi sınamış, klassik fars şairlərinin poetik nümunələrini dilimizə tərjümə etməyə başlamısınız. Beşinji kurs tələbəsi ikən SSRİ İqtisadi Əlaqələr Dövlət Komitəsi tərəfindən Əfqanıstana tərjüməçi kimi ezam olunmış, orada bir il işlədikdən sonra Bakıya qayıdaraq dövlət imtahanlarını vermiş və yenidən həmin ölkəyə dönərək, daha 2 il əmək fəaliyyətində olmusnuz. 1966-jı ildə xariji ezamiyyətdən qayıdaraq, təhsil aldığınız fakültədə dekan müavini vəzifəsində işləmiş, 1968-ji ildə Azərbayjan Elmlər Akademiyası Tarix İnstitutunun aspiranturasına daxil olmuş, yenidən Əfqanıstana göndərilmisiniz. 1970-ji ildə Vətənə qayıdaraq, 3 il MEA Tarix İnstitutunun əyni aspirantı olmuş, namizədlik dissertasiyası müdafiə etmisiniz.

1970-78-ji illər arasında respublikamızın, bir sıra xariji ölkənin müxtəlif elmi orqanlarında Orta əsrlər tariximizlə bağlı çoxsaylı məqalələriniz işıq üzü görmüşdür. Siz əfqan yazıçı və şairlərinin əsərlərini dilimizə çevirərək Bakıda, Azərbayjan müəlliflərinin yaradıjılığından nümunələri Kabul şəhərində nəşr etdirmisiniz.

1978-82-ji illərdə Əfqanıstan hökumətinin dəvəti ilə yenidən Əfqanıstana qayıtmış, əvvəljə həmin ölkənin müxtəlif nazirliklərində, sonradan isə Nazirlər Şurasında fəaliyyət göstərmisiniz.

Siz 1983-85-ji ilərdə Elmlər Akademiyası Tarix İnstitutu orta əsrlər tarixi şöbəsində elmi işçi vəzifəsində işləmiş, lakin yenidən Əfqanıstana dəvət olunaraq dördünjü dəfə ixtisasınız üzrə tərjüməçilik fəaliyyətinizi davam etdirmiş, ölkənin Baş Naziri və SSRİ-nin oradakı baş müşavirinin mütərjimi olmuş, Əfqanıstanın üç dövlət medalı və SSRİ-nin Fəxri Fərmanları ilə təltif edilmisiniz. Doktorluq dissertasiyası müdafiə etmiş, 2004-jü ildə isə professor elmi diplomuna layiq görülmüsünüz.

Sizin "XV əsr Azərbayjan dövlətlərinin quruluşu" adlı əsərinizdə Qaraqoyunlu, Ağqoyunlu və Şirvan dövlətləri haqqında xüsusi məlumat verilir. Tarixi mənbələrin tərjüməsi sahəsində də zəhmətiniz önəmlidir.

Şeirləriniz Əfqanıstan, İran, Türkiyə, İraq və Yaponiyada çap olunmuşdur. 2009-ju ildə Yaroniyanın iki şəhərində "XX əsr Azərbayjan Milli tarixşünaslığı: tarixi təjrübə və müasir vəziyyət" adlı geniş məruzə ilə çıxış etmisiniz.

Xariji ölkə səfərlərinə həsr etdiyiniz səfərnamələr kitab və məqalələr halında dəfələrlə nəşr olunmuşdur.

"Soqut və zovale-Səfəvilərin süqutu və zavala uğraması" adlı kitabınız fars dilində İranda, "Azərbayjan və Osmanlı İmperiyası XV-XVI əsrlərdə" monoqrafiyanız isə türk dilində Türkiyədə çap olunmuşdur

Hörmətli Şahin müəllim!

Sizi 80 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, sizə uzun ömür, jan sağlığı və yeniyeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**